# O torpaqlara həyat qayıdır!

## Zəngilanın Baş Planı təsdiq edildi

*NARDAR*




Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə böyük quruculuq işləri həyata keçirilir. Azərbaycan xalqı olaraq əsas missiyamız azad edilmiş ərazilərimizin bərpa edilməsi, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını təmin etməkdən ibarətdir. Artıq o torpaqlara həyat qayıdır. Ötən il Zəngilanın Ağalı kəndi “Böyük Qayıdış”ın ilk müjdəsi oldu. Bu il isə Tərtərin Talış kəndinə, Laçın və Füzuli şəhərlərinə insanlar qayıdıb. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərin bərpası və “Böyük Qayıdış”ın təmin olunması yeni strateji mərhələdə dövlət siyasətinin əsas prioritetləri sırasında yer alır. Söhbət bütünlüklə dağıdılmış ərazilərin minalardan təmizlənməsindən, şəhər və kəndlərin bərpasından, zəruri infrastruktur qurulmasından gedir. Döyüş meydanında düşməni diz çökdürən Azərbaycan bərpa və quruculuq işlərini də qısa müddətdə və yüksək səviyyədə həyata keçirmək əzmindədir. Ötən dövrdə reallaşdırılan layihələr onu deməyə əsas verir ki, respublikamız işğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək.

Qeyd edək ki, oktyabrın 30-da Azərbaycanın Baş naziri Əli Əsədov “Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı”nın təsdiq edilməsi haqqında qərar imzalayıb. Artıq Zəngilan şəhərində quruculuq-bərpa işləri sürətlə davam etdirilir. Xatırladaq ki, Zəngilan şəhərinin baş planı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya hələ ötən il mayın 26-da təqdim olunmuşdu. Zəngilana səfər zamanı dövlət başçısına və birinci xanıma məlumat verilmişdi ki, Baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında bu sahədə böyük təcrübəyə malik nüfuzlu beynəlxalq şəhərsalma qrupu - İsveçrənin “sa_partners” şirkəti tərəfindən yerli mütəxəssislərin iştirakı ilə hazırlanıb. Layihəyə əsasən, Zəngilan şəhəri beynəlxalq əhəmiyyətli Zəngəzur nəqliyyat dəhlizi ilə sıx əlaqələri olan strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcək. Belə ki, Araz vadisinin yaxınlığında, həm Zəngəzur nəqliyyat dəhlizindən, həm də Zəngilan Beynəlxalq Hava Limanından cəmi 10 kilometr məsafədə yenidən qurulacaq şəhər yaradılacaq əhəmiyyətli nəqliyyat şəbəkəsini müasir infrastrukturu ilə tamamlayacaq. Şəhərin strateji əhəmiyyəti nəzərə alınaraq Baş planda Zəngilanın beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqəsi olan logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdirilməsi nəzərdə tutulur.

Diqqətə çatdırılıb ki, Baş planın konseptual əsasını “rahat yaşayış”, “yaşıl və təmiz”, “mütərəqqi innovasiyalar” kimi şəhər yanaşmaları təşkil edir. Gələcəyin şəhəri mənzərəli landşaftı, çayətrafı ictimai məkanları, sağlam ətraf mühiti sayəsində sakinləri və qonaqları üçün rahat həyat şəraiti ilə seçiləcək. Şəhərin yerləşdiyi Oxçuçay çayının sahilində geniş parkın, həmçinin dağüstü parkın və daxili yaşıl dəhlizlərin salınması əhalinin asudə vaxtının səmərəli və maraqlı təşkili ilə yanaşı, təmiz ekoloji mühitin formalaşmasına imkan yaradacaq. Burada “ağıllı şəhər” yanaşmasının tətbiqi, müasir texnologiyalardan və bərpaolunan enerji mənbələrindən geniş istifadə edilməsi isə Zəngilanın yaşayış üçün əlverişliliyini artıracaq, nəqliyyat sistemini ekoloji təmiz, müasir və davamlı edəcək, onu iqtisadiyyatın inkişafı baxımından region səviyyəsində nümunəvi şəhərə çevirəcək.

Yeri gəlmişkən, bu il sentyabrın 29-da Zəngilanda keçirilən “Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi” mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiqlənib, 30 kəndin isə təməli qoyulub. Bu, o deməkdir ki, işğaldan azad edilmiş bütün şəhərlərin baş planı təsdiq edilib. İndiyədək Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ayrı-ayrı şəhərlərin, o cümlədən mədəniyyət paytaxtımız Şuşanın Baş planının təqdimat mərasimləri keçirilib. İşğaldan azad olunmuş şəhərlərimizin baş planları ən müasir standartlara cavab verir. Bu isə doğma yurdlarına qayıdacaq bütün həmvətənlərimizin yüksək rifah, firavan və əmin-amanlıq şəraitində yaşamalarını təmin edəcək.

